# Milli Məclisin Sədri Sahibə Qafarova TASS Agentliyində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş sərgi ilə tanış olub

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə işgüzar səfər edən Azərbaycan nümayəndə heyəti mayın 15-də TASS Agentliyinin mənzil-qərargahına gəlib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, burada Azərbaycan nümayəndə heyətini TASS Agentliyinin baş direktoru Sergey Mixaylov, baş direktorun müavini Mixail Qusman və digər şəxslər qarşılayıblar.

Nümayəndə heyəti agentliyin mənzil-qərargahı qarşısındakı meydanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş sərgi ilə tanış olub.

Sərgidə görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin həyat və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar nümayiş etdirilib. Burada Heydər Əliyevin keçmiş SSRİ rəhbərliyində təmsil olunduğu illərdə ölkənin inkişafı üçün gördüyü işlərə və həyata keçirdiyi nəhəng layihələrə dair fotolar öz əksini tapıb. Bununla yanaşı, Ulu Öndər Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan-Rusiya münasibətlərini əks etdirən fotolar da sərgilənib. Sərgi ilə tanışlıqdan sonra TASS Agentliyinin mənzil-qərargahında Azərbaycan nümayəndə heyəti ilə agentliyin rəhbər şəxsləri arasında görüş keçirilib.

*Ardı 5-ci səh.*

# Milli Məclisin Sədri Sahibə Qafarova TASS Agentliyində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş sərgi ilə tanış olub





*Əvvəli 4-cü səh.*



Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin 100 illik yubileyinə göstərilən yüksək diqqətə və sərginin təşkilinə görə təşəkkürünü bildirib. Spiker diqqətə çatdırıb ki, Heydər Əliyevin adı həyatını xalqının yolunda fədakar xidmətə həsr etmiş dahi şəxsiyyət kimi Azərbaycan tarixinə əbədi həkk olunub. Heydər Əliyevin liderlik keyfiyyətləri, uzaqgörən siyasəti və güclü iradəsi tariximizin ən taleyüklü məqamlarında ona öz xilaskarlıq missiyasını uğurla həyata keçirməyə imkan verib. Ulu Öndərin müstəqil Azərbaycanın rəhbəri olduğu illərdə həyata keçirdiyi işlər bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qədirbilən xalqımız böyük oğlu Heydər Əliyevin xatirəsini həmişə uca tutur və onu minnətdarlıqla xatırlayır.

Söhbət zamanı TASS Agentliyinin baş direktoru Sergey Mixaylov və agentliyin əməkdaşları Ulu Öndər Heydər Əliyevin dahi şəxsiyyət kimi misilsiz fəaliyyətindən bəhs edib, onun Rusiya-Azərbaycan münasibətlərinin inkişafında oynadığı roldan, SSRİ rəhbərliyində təmsil olunduğu illərdə gördüyü böyük işlərdən danışıblar. Görüşdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nizami Səfərov, deputatlar Mixail Zabelin, Elnur Allahverdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

Azərbaycan.- 2023.-16 may.- S.4-5.